**ELM KORİFEYLƏRİ**

*Ağaxan Ağabəyli - 110*

# O, YENİ MƏKTƏB YARATDI



XX əsr Azərbaycan elminin, heyvandarlıq elmi məktəbinin görkəmli nümayəndələrindən biri də professor Ağaxan Ələsgər oğlu Ağabəylidir. O, ötən əsrin iyirminci illərinin sonlarından başlayaraq Azərbaycanda heyvandarlıq elmi fikrinin formalaşmasında, inkişaf etdirilməsində, bu sahənin yeni istiqamətlərinin müəyyənləşdirilməsində müstəsna xidmətlər göstərmiş, özünün elmi məktəbini yaratmışdır.

Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyasının müxbir üzvü, professor Ağaxan Ağabəyli Azərbaycan camışçılıq elmi məktəbinin banisidir. O, öz yaradıcılığı ilə heyvandarlığın, xüsusən də camışçılığın, elmi-nəzəri, təcrübi əsaslarını möhkəmləndirmiş, yeni elmi təməllərini qoymuşdur.

Professor Ağaxan Ağabəylinin çoxşaxəli elmi yaradıcılığı, elmi irsi təkcə Azərbaycan, keçmiş İttifaq ölkələri deyil, bütövlükdə dünya heyvandarlıq elminin ən dəyərli, ən zəngin səhifələrindən, dünya elmi ictimaiyyəti tərəfindən tədqiq edilən, öyrənilən, müraciət olunan ən qiymətli məxəzlərdəndir. Onun, bir elm adamı, insan kimi, həyatı və fəaliyyəti, yaradıcılığı təkcə həmkarları, tələbələri, ardıcılları üçün deyil, ümumən, bütün nəsillər üçün bir nümunədir, örnəkdir.

Professor Ağaxan Ağabəyli 1904-cü ildə Salyan rayonunun Kürqaraqaşlı kəndində anadan olub. O, ailənin sonbeşiyi, 9-cu övladı idi. Ağaxan müəllim Muğanda sayılan-seçilən qədim nəslə, Ağabəylərə mənsubdur. Bunların da kökü çox qədimlərə, cığatay tayfalarına gedib çıxır. Bu nəslin nümayəndələri I Şah Abbas Səfəvinin sarayında qulluq etmişlər. Bu dövrdə onlardan birinə, Arslan bəyə, şahın fərmanına əsasən, Muğanda torpaq sahələri bəxş edilir. Arslan bəyin törəmələrindən olan Cığatay bəy Salyanın ən tanınmış mülkədarlarından sayılırdı. Cığatay bəyin oğlu İsmayıl bəy Ağaxan Ağabəylinin ulu ba-

bası Ağabəydir. Ağa bəyin oğlu Soltan bəy isə Ağaxan müəllimin babasıdır. Soltan bəy dövrünün ən qabaqcıl ziyalılarından idi. XIX əsrin ikinci yarısında o, alim, şair, rəssam kimi tanınırdı. Soltan bəy həm də məşhur xəttat idi. Onun gözəl xəttlə üzünü köçürüb müxtəlif naxışlarla bəzək vurduğu, müqəddəs kitabımızın, "Qurani-Kərim"in nüsxələri müxtəlif muzeylərdə, əlyazma saxlanclarında qorunur. Ağaxan müəllimin atası Ələsgər Soltan oğlu da öz dövrünün tanınmış ziyalılarından, imkanlı adamlarından sayılırdı. O, təhsilə, maarifə çox yüksək qiymət verirdi.

Ələsgər kişinin ocağında böyüyən uşaqlarda oxumağa çox böyük həvəs, maraq vardı. Amma, Ağaxanda bu həvəs daha çox idi. Burada bir haşiyəyə çıxmaq yerinə düşərdi. Ötən əsrin 20-ci illərində Sovet hökumətinin bəy, xan nəslinə qənim kəsildiyi bir vaxtda karyera qurmaq, irəliləmək, qeyri-mümkün idi. Odur ki, Ağaxan müəllimin rəsmi sənədlərində kəndli-xarrat ailəsində doğulduğu göstərilirdi.

Ağaxan 1929-cu ildə orta məktəbi bitirir. Həmin ildə də Azərbaycan Dövlət Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsinə daxil olur. O burada məşhur sovet alimi, professor Nikolay Dmitryeviç Potyomkindən dərs alır. Bu dərslər çox maraqlı keçərmiş. N.D.Potyomkin tələbələrinə nəzəri biliklər verməklə yanaşı, keçirdiyi təcrübələrdə onlara praktiki məsələləri də aydınlaşdırar, əyani surətdə göstərərmiş. Təsərrüfatlarda damazlıq işlərinin qurulması ilə bilavasitə tanış edərmiş.

Belə bir şəraitdə Ağaxan Ağabəylidə elmə, elmi araşdırmalara böyük həvəs yaranır. O, tələbə elmi dərnəklərində yaxından iştirak edir. İnstitutda kənd təsərrüfatına aid Azərbaycan dilində terminlərin hazırlanmasında fəallıq göstərir. Bir sözlə, onun elmi araşdırmalarının ilk təməli burada qoyulur.

Ağaxan Ağabəyli 1925-1926-cı illərdə tələbə elmi dərnəklərinin xətti ilə Moskva və Leninqrad (indiki Sankt-Peterburq) şəhərlərinə, Ukraynaya, Ümumittifaq Hibridləşdirmə və İqlimləşdirmə İnstitutuna göndərilir. O, bu elm ocaqlarında ingilis qoyun cinslərinin ətlik, yunluq məhsuldarlığını öyrənməyə, tədqiq etməyə başlayır. Professor N.D.Potyomkinin elmi rəhbərliyi ilə araşdırmalar aparır.

Ağaxan Ağabəyli 1930-cu ildə Moskvadakı Ümumittifaq Elmi-Tədqiqat Heyvandarlıq İnstitutunun aspiranturasına daxil olur. O, "Ləzgi cinsli qoyunlar və onların merinoslarla çarpazlaşdırılmasının nəticələri" mövzusunda dissertasiya işi üzərində işləməyə başlayır. 1932-ci ildə aspiranturanı bitirir.

Aspiranturada oxuduğu illərdə elmi ekspedisiyaların tərkibində Smolensk, Moskva vilayətlərində, Belarusiyada, Zaqafqaziya respublikasında ezamiyyətdə olur. Yerli iribuynuzlu qaramal cinslərinin "Şvis" cinsləri ilə çarpazlaşdırılmasının nəticələrini öyrənmişdir. Gəldiyi elmi qənaətlərə söykənərək, Leninqradda keçirilən elmi konfransda, ÜİHİ-nin nümayəndəsi kimi, Zaqafqaziyada camışların və zebuların tədqiqinin vacibliyi məsələsini qaldırır.

Ağaxan Ağabəylinin bir alim kimi formalaşmasında N.D.Potyomkin, E.N.

Liskun, A.S.Serebrovski, M.A.Dyakov, N.İ.Kalugin, İ.V.Fiqurovski, V.T.Smirnov-Loqinov, F.Ə.Məlikov və b. kimi nəhəng elm adamlarının, alimlərin müstəsna rolu olmuşdur.

Aspiranturanı bitirdikdən sonra Ağaxan Ağabəyli Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda, Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutunda və b. elm ocaqlarında müxtəlif elmi vəzifələrdə çalışmış, heyvandarlıq elminə aid ən aktual mövzularda tədqiqat işləri aparmış, mühazirələr oxumuşdur. Məsələn, "Kənd təsərrüfatı heyvanlarının yeniləşdirilməsi və genetikası" mövzusunda oxuduğu mühazirələr həmin qəbildən idi. Onu da qeyd edək ki, həmin sahədə ilk dərsliklər yazan ilk azərbaycanlı alim Ağaxan müəllim idi. 1933-cü ildə Ağaxan müəllim tərəfindən "Genetika, irsiyyətin maddi əsasları", "Heyvanların müxtəsər genetikası", kitabları yazılmış, çap edilmişdir. Bunlar alimin ilk əsərləri idi.

Ağaxan Ağabəyli 1938-ci ildə namizədlik, 1949-cu ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1939-cu ildə dosent, 1950-ci ildə isə professor vəzifələrinə seçilmişdir. 1956-cı ildə isə ÜİKTEA-nın müxbir üzvü seçilmişdir. Genetika, seleksiya, zootexnika elmlərinə gətirdiyi yeniliklər həmin quruma seçilməyinə rəvac verdi.

Professor Ağaxan Ağabəyli olduqca səriştəli, bacarıqlı pedaqoq idi. Onun yetişdirdiyi alimlər pleyadası, tələbələri müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Mənim bir alim kimi yetişməyimdə, formalaşmağımda akademiklər Firuz Əli oğlu Məlikov, Viktor Konstantinoviç Milovanov, Lev Konstantinoviç Ernst, professor İrina İvanovna Sokolovskaya ilə yanaşı professor Ağaxan Ələsgər oğlu Ağabəylinin də çox böyük zəhməti olub. Özümü xoşbəxt sanıram, qürur duyur, fəxr edirəm ki, bir müəllimim kimi o böyük insandan çox şeyi görüb-götürmüş, öyrənmiş, həm də həmkarım kimi, bir yerdə çiyin-çiyinə çalışmışıq.

Professor Ağaxan Ağabəylinin yaradıcılığının kökü, qayəsi camışçılıqla bağlıdır. Onun elmi tədqiqatları Azərbaycanda, keçmiş İttifaqda camışçılığın inkişafına həsr olunub. Azərbaycan camışçılıq məktəbinin yaradılması Ağaxan Ağabəylinin adıyla bağlıdır. Onun elmi rəhbərliyi, birbaşa iştirakı və bu sətirlərin müəllifi ilə birgə uzun müddət aparılan elmi-tədqiqatlar nəticəsində "Azərbaycan" camış cinsi yaradıldı. Bu cinsin nüvəsi keçmiş İttifaqda camışçılıq üzrə yeganə damazlıq zavodu olan Şəkidəki "Daşüz" camışçılıq təsərrüfatında hazırlandı.

Ağaxan müəllimlə 1945-ci ilin sentyabrında tanış oldum. O vaxt mənim tələbəlik illərimin ilk günləri idi. Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun Zootexnika fakültəsinə qəbul olunmuşdum.

Onun mühazirələrini diqqətlə dinləyərdik. Çox maraqlı keçərdi bu mühazirələr. Müəllimimiz kimi hamımız onu sevirdik. O illərdəki yaxınlığımız sonralar dərin dostluğa, sıx əməkdaşlığa çevrildi.

Mən ikinci kursu bitirən kimi institutdan akademik K.A.Timiryazyev adına Moskva Dövlət Kənd Təsərrüfatı Akademiyasına, zootexnika fakültəcinin 3-cü kursuna köçürül-

düm. Bu mötəbər elm ocağında oxuduğum illərdə həm akademik Firuz Məlikov, həm də Ağaxan müəllim mənə diqqət göstərir, təhsilim, elmi işlərimlə maraqlanır, problemlərimi öyrənir, öz tövsiyələrini, məsləhətlərini verirdilər. Hər dəfə də tapşırırdılar ki, orda qalma, gəl Azərbaycana.

Elə də oldu. Təhsilimi bitirib qayıtdım. Onların ikisi də Gəncədə məni qarşılayıb apardılar Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutuna. İnstitutun qoyunçuluq şöbəsində kiçik elmi işçi - cavabdeh icraçı vəzifələrinə işə götürdülər. Bu 1950-ci ildə olmuşdu.

Elə o vaxtdan da Ağaxan müəllimin diqqətini, nəzərini üstümdə hiss etdim. Bizi birləşdirən bir səbəb də vardı. Özü də ömrümüzü dəyərləndirən, onu mənalandıran amil. Bu, ikimizin də araşdırmalarımızın, tədqiqatlarımızın camışçılığın inkişafına həsr olunması idi. Mənim əldə etdiyim nailiyyətlərlə o çox sevinirdi. Çalışırdı ki, məşğul olduğum elmi problemləri dəqiqliklə dərindən araşdırım, yüksək elmi nəticələr əldə edim. Məşğul olduğum problemlər isə o dövrdə də, aktual idi, elə indinin özündə də. Ağaxan müəllim bunu çox dəyərləndirirdi. O, demək olar ki, bütün işlərimə aid öz fikirlərini, rəylərini bildirirdi.

O, həmişə çalışırdı ki, ali məktəblərdə Azərbaycan dilində çox dərsliklər olsun. Demək olar ki, bütün dərsliklər rus dilində idi. Ağaxan müəllim "Camışçılıq", "Kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi" kimi və s. dərsliklərin müəllifidir. Onu da qeyd edək ki, "Camışçılıq" kitabı 1967-ci ildə rus dilində Moskvada, "Kolos" nəşriyyatında çap edilib. Bu dərs vəsaiti sonralar Vyetnam dilinə tərcümə edilib. İndi də bu dərslikdən Vyetnamın ali məktəblərində istifadə olunur.

1960-cı ildə çapdan çıxmış, bu sətirlərin müəllifinin "Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması" adlı kitabı, həmin mövzuda azərbaycan dilində yazılmış ilk dərs vəsaiti idi. Dərsliyə ilk rəy yazanlardan biri də Ağaxan müəllim oldu. Bu mənim üçün çox qiymətli idi. 1960-cı il iyul ayının 5-də imzaladığı həmin rəydə Ağaxan müəllim yazırdı:

"- Hal-hazırda mütərəqqi zootexniki üsul olan süni mayalanma üsullarının respublikamızın heyvandarlığında geniş tətbiq olunduğu bir dövrdə, ilk dəfə olaraq Azərbaycan dilində yazılmış kənd təsərrüfatı heyvanlarının süni mayalanmasına aid dərsliyə, məlumat kitabına çox böyük tələbat vardır.

Bu baxımdan E.B.Başirovun yazmış olduğu kitab süni mayalama stansiyasının işçilərindən, texniklərindən, zootexniklərdən, baytar həkimlərdən, institut və texnikumların zootexnika və baytarlıq fakültələrinin tələbələrindən ötrü ən qiymətli vəsait olacaqdır".

Bu ustad sözü, ustad xeyir-duası idi.

Professor Ağaxan Ağabəyli "Camışçılıqda süni mayalanmanın tətbiqi", "Əlcəzairin heyvandarlığı" və b. əsərlərimə də rəy yazmış, öz təkliflərini, tövsiyələrini vermişdir.

Ağaxan müəllim bir alim kimi heyvandarlıqda süni mayalanma məsələlərinin həllinə çox böyük önəm verirdi. Elə bu sahədə ilk sınaqlar da Ağaxan müəllimin rəhbərliyi ilə aparıldı. O, süni mayalanmanın heyvandarlıq, o cümlədən də camışçılıq elminin və təcrübəsinin inkişafına hədsiz uğur gətirəcəyinə möhkəm inanırdı və bunu öz təcrübələri ilə

sübut etməyə çalışırdı. Belə ki, 1935-1938-ci illərdə professor Ağaxan Ağabəyli Müseyib Mədətovla birlikdə süni mayalanmanın ilkin sınaqlarını gerçəkləşdirdi. Bununla da süni mayalanmanın dünyada ilk dəfə tətbiqi Azərbaycanda həyata keçirildi.

1951-1954-cü illərdə isə onun tələbəsi, bu sətirlərin müəllifi tərəfindən dünyada ilk dəfə olaraq camışlarda süni mayalanmanın orijinal, proqressiv metod və texnologiyaları işlənib hazırlandı. Dünya heyvandarlığında həmin metod və texnologiyalar bu gün də uğurla tətbiq edilməkdədir. Bunlar da professor Ağaxan Ağabəylinin öz yaradıcılığında təsbit etdiyi, müəyyənləşdirdiyi heyvandarlığın yeni inkişaf istiqamətinin məntiqi davamıdır.

İndi mövzu ilə bağlı gətirəcəyim bir fakt elmi söhbətlərdə, elmi yazılarda çox hallanır, çox deyilir. Çox aydın, çox da yığcam bir rəqəmdir. Keçmiş İttifaqda saxlanılan camışın 85%-i Azrbaycanda idi. Qalan 15%-də digər respublikalarda, Ukraynada, Krımda yaşayan yerli azərbaycanlılar, türklər tərəfindən bəslənilirdi. Yəni camış oralara Azərbaycandan keçib, azərbaycanlılar aparıb.

Bu sadə faktın arxasında isə dərin köklər, qaynaqlar, elmi təməllər dayanır. Azərbaycan camışçılıq təcrübəsinin və elminin vəhdəti, xalqdan gələn, saxlama, bəsləmə, seleksiya ənənələri durur. XX əsr isə bir dövr olaraq Azərbaycanda heyvandarlıq, o cümlədən də, camışçılıq elminin və təcrübəsinin yüksək inkişafı ilə xarakterizə olunur.

Belə bir münbit zəmində isə Azərbaycanda iki böyük elmi məktəb yarandı. Biri Azərbaycan heyvandarlıq məktəbi, ikincisi isə Azərbaycan camışçılıq məktəbi. Azərbaycan heyvandarlıq məktəbinin banisi akademik Firuz Məlikov idi. Azərbaycan camışçılıq məktəbinin başında isə professor Ağaxan Ağabəyli dururdu.

Bir elm sahəsi kimi camışçılıq alimlərimiz tərəfindən 60-cı illərin ortalarınadək bütün aspektlərdən araşdırıldı, tədqiq edildi, öyrənildi. Təkcə Azərbaycan elminə deyil, bütövlükdə dünya elminə çox dəyərli ideyalar, müddəalar gətirildi, yüksək elmi nəticələr verildi. Bunlar da Azərbaycan camışçılıq elmi məktəbinin, həm də professor Ağaxan Ağabəylinin böyük zəhmətinin bəhrələri idi. Məhz çəkilən zəhmətlərin hesabına Azərbaycan heyvandarlıq, camışçılıq elmi məktəbləri beynəlxalq arenada nüfuz qazandı, yüksək mövqe tutdu, təqdir edildi.

Ağaxan Ağabəyli camışçılığa aid 135-dən çox elmi əsərin müəllifidir. Onun yazdığı "Camışçılıq" kitabı, dərs vəsaiti 1948, 1959, 1964-cü illərdə təkrar nəşr edilib. 1967-ci ildə işıq üzü görmüş "Camışlar" monoqrafiyası camışçılıq sahəsində apardığı çoxillik elmi tədqiqatların məcmuu, nəticəsidir.

Ağaxan müəllim həmişə yeniliyə can atırdı, yeni ideyalar, fikirlər irəli sürürdü. Bizi də yeniliyə, yeni yanaşmalara öyrədirdi. Məhz belə mövqe tutmağımız növbəti yeniliyə imza atmağımıza səbəb oldu. Biz, Ağaxan Ağabəyli, Abdulla Həşimov, Surxay Quliyev və bir də bu sətirlərin müəllifi birlikdə dünyada ilk dəfə ağ camış naxırını yaratdıq.

Professor Ağaxan Ağabəyli beynəlxalq mətbuatda, ölkə daxilində camışçılığa aid gedən materialları çap məhsullarını diqqətlə izləyərdi. Yadımdadır, ötən əsrin 60-cı illərinin ikinci yarısı idi. O vaxtları mən Respublika Damazlıq Birliyinin rəisi vəzifəsində çalışır-

dım. Günlərin birində zəng vurub dedi ki, sənə şad xəbərim var. Əlavə edib dedi ki, Eyyub, Romadan FAO mənə ingilis dilində dünyada camışçılığın inkişafına aid funamental bir əsər göndərib. Gəl, birgə tanış olaq!

Gedib Ağaxan müəllimlə birgə həmin kitabın bizə aid olan hissəsini diqqətlə oxuduq.

Çox maraqlı, həm də çox qiymətli olan bu kitabda dünyada camışçılığın vəziyyəti, aparılan elmi tədqiqatların nəticələri verilmişdi. Bir neçə yerdə də Ağaxan müəllimin və mənim adlarımız çəkilir, nailiyyətlərimiz barədə məlumatlar verilirdi. Belə bir beynəlxalq dərgidə Azərbaycan camışçılığı barədə yazılması, nailiyyətlərimizin təqdir edilməsi, əlbəttə, böyük uğur idi. Bir-birimizi təbrik etdik. Bu zaman ona dedim:

- Sizin kimi bir müəllimim olmasaydı belə bir uğuru qazana, elmə yeniliklər gətirə bilməzdim. Bu elmin bünövrəsini qoyan sizsiniz. Qazandığım hər bir uğura görə sizə borcluyam!

Ömrüm boyu da çalışdım ki, sevimli müəllimimin yolunu layiqincə davam etdirəm. Onun borcundan çıxam, ödəyim! Amma, ödəyə biləcəyəmmi?? Bax, bunu bilmirəm!

Professor Ağaxan Ağabəylinin elmi fəaliyyəti tək camışçılıqla məhdudlaşmırdı. O, Azərbaycanda zebu, qaramal və toyuq cinslərinin seleksiyası sahəsində də fundamental işlər görmüşdür. Bu istiqamətlərdə alimimizin apardığı tədqiqatlar heyvandarlıq elmimizin ən qiymətli nümunələrindəndir. "Zebu və onun qaramal ilə hibridləşdirilməsi" adlı monoqrafiyası da həmin əvəzsiz nümunələrdəndir.

Professor Ağaxan Ağabəyli təkcə tədqiqatçı alim deyildi. O, həm də yüksək səviyyəli bacarıqlı bir pedaqoq kimi də tanınmış, şöhrət tapmışdı. Ağaxan müəllim Türkmənistan, Dağıstan, Osetiya, Özbəkistan, Kabardin-Balkar respublikaları, Bolqarıstan, Vyetnam, Misir, Hindistan dövlətləri üçün elmi kadrlar hazırlamışdır.

Ağaxan müəllim rəhmətə gedən ildən, 1980-ci ildən bu günə qədər Azərbaycanda camışçılığın, xüsusi ilə damazlıq camışçılığın inkişafı, Azərbaycan camış cinsinin təkmilləşdirilməsi sahəsində görülən işlərlə onun tələbələri tərəfindən yerinə yetirilir. Var gücümüzlə çalışırıq ki, onun arzularını, ideyalarını gerçəkləşdirək. FAO ilə əlaqələr qururuq, əməkdaşlıq edirik. FAO-nun köməyilə Azərbaycanda camışçılıq Assosasiyası yaratmışıq. Azərbaycan Avropada ikinci ölkədir ki, belə bir təşkilat yaradıb, Dünya Camışçılıq Federasiyasına daxil olub.

Xalqımızın görkəmli alimi, istedadlı pedaqoq, təvazökar və nəcib insan, professor Ağaxan Ələsgər oğlu Ağabəylinin əziz xatirəsi bizim hamımızın, onun çoxsaylı tələbələrinin, hazırladığı elmi kadrların qəlbində daim yaşayacaq, heç zaman unudulmayacaq!

Allah ona rəhmət eləsin! Ruhu şad olsun!

***Eyyub Bəşirov***

*Azərbaycan Heyvandarlar Assosiyasiyasının prezidenti,*
*Rusiya Federasiyası Beynəlxalq Keyfiyyət Problemləri*
*Akademiyasının həqiqi üzvü, akademik*